# ROKOL® SİNTETİK PARLAQ BOYA

## SİNTETİK PARLAQ BOYA




### Məhsul haqqında

Alkid əsaslı, yüksək örtmə qabiliyyətinə, saralmağa qarşı müqavimətə, sürtünməyə və suya qarşı dayanıqlığa malik, asan silinə bilən və mükəmməl yayılma gücü sayəsində asan istifadəni təmin edən sintetik boyadır.

### İstifadə sahələri

Bu boyadan:

• bütün növ metal, taxta, suvaq və beton səthlərdə istifadə olunur.

### Üstünlükləri

• yüksək örtmə qabiliyyətinə malikdir;
• saralmağa qarşı müqavimətlidir;
• sürtünməyə və suya qarşı dayanıqlıdır;
• tez quruyur;
• mükəmməl yayılma qabiliyyətinə malikdir;
• istifadəsi asandır.

### İstifadə qaydaları

***Səthin hazırlanması.*** Səth yapışmağa mane olan hər növ toz, yağ, pas, parafin və s. qalıqlardan təmizlənməlidir.

***Qarışığın hazırlanması.*** İstifadədən əvvəl boya yaxşıca qarışdırılmalı və boyanın 5-10%-i qədər **ROKOL Sintetik Tinerlə** və ya digər oxşar məhsulla durulaşdırılmalıdır.

***Tətbiqi.*** Boya uyğun püskürtmə aparatı və ya vərdənə vasitəsilə səthə çəkilir.

### Texniki göstəricilər

| | |
|---|---|
| **Rəngi** | ağ, bordo, qara, qırmızı, sarı, yaşıl, boz, göy |
| **Məhsulun quruluşu** | alkid əsaslı |
| **Quru qalığı** | 67% |
| **Sıxlığı** | 1,05 kq/litr |
| **Bərkiməsi** | 7-8 saatdan sonra |
| **Tam quruma müddəti** | 24 saatdan sonra |
| **Qablaşdırma** | 0,85; 2,5 və 15,0 litrlik dəmir qablarda |

### Sərfiyyat

1 $m^2$ səthə tək qat üçün 80 - 100 qr boya istifadə oluna bilər.

### Saxlama müddəti və qaydası

Açılmamış qablarda, sərin yerdə 2 il saxlanıla bilər.

### Xəbərdarlıqlar

• boya buxarının nəfəsə daxil olmaması və həmçinin dəriyə və gözə düşməməsi üçün fərdi mühafizə vasitələrindən istifadə edin;
• uşaqların əli çatmayan yerlərdə saxlayın;
• oddan qoruyun.

### Zəmanət və texniki dəstək

• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• “Mətanət A” şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə “Mətanət A” şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün “Mətanət A” şirkətinə müraciət edin!